Tariyel Məmmədov

# AZƏRBAYCAN PSİXOLOJİ FİKİR TARİXİNDƏ ŞƏXSİYYƏT PROBLEMİ

*(ən qədim dövrlərdən XV əsrə qədər)*

325//

Bakı – MÜTƏRCİM – 2011

SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ KİTABXANA

159.923
M 51

Elmi redaktor: *pedaqoji elmlər doktoru, professor*
**Fərrux Rüstəmov**

Rəyçilər: *psixologiya elmləri doktoru, professor*
**İsfəndiyar Novruzlu**

*fəlsəfə eləmləri doktoru, professor*
**Həsən Sadıqov**

*tarix elmləri doktoru, professor*
**Adil Baxşəliyev**

**T.Məmmədov. Azərbaycan psixoloji fikir tarixində şəxsiyyət problemi (ən qədim dövrlərdən XV əsrə qədər).** *Monoqrafiya.*
– Bakı: Mütərcim, 2011. – 552 səh.

M $\frac{0304000000}{026}$ 71-11

© T.Məmmədov, 2011

MÜNDƏRİCAT

GİRİŞ .......... 5

I FƏSİL. ŞƏXSİYYƏT HAQQINDA ÜMUMİ TƏSƏVVÜRLƏR. ŞƏXSİYYƏT NƏZƏRİYYƏSİ. PSİXOLOGİYADA ŞƏXSİYYƏT PROBLEMİ .......... 8
1.1. Şəxsiyyətdə sosial və bioloji qarşılıqlı əlaqə .......... 58
1.2. Şəxsiyyətin formalaşması və inkişafı .......... 73
1.3. Şəxsiyyət tədqiqatına nəzəri və eksperimental yanaşmalara aid şəxsiyyət nəzəriyyələri .......... 91
1.4. Şəxsiyyət haqqında tədqiqatların eksperimental metodologiyası .......... 154
1.5. Şəxsiyyətin inkişafı ilə bağlı tədqiqatlarda istiqamətlər .......... 166
1.6. Şəxsiyyətin tərbiyə prosesi .......... 179
1.7. Şəxsiyyətin fəaliyyətinin qiymətləndirilməsi və ölçülməsi işinin metodikası .......... 191

II FƏSİL. MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZDƏ ŞƏXSİYYƏTİN PSİXOLOJİ PROBLEMLƏRİ .......... 200
2.1. Bilqamısda şəxsiyyət məsələləri .......... 213
2.2. Danışan daşları yaradanlar və Azıx psixologiyası .......... 226
2.3. Gəmiqaya – şəxsiyyətin psixoloji inikasının ilk izləri .......... 246
2.4. Saflıq qardaşları və onların psixoloji görüşləri .......... 255
2.5. Tomris ananın psixoloji portreti .......... 266
2.6. Sufilərdə şəxsiyyət və onun psixoloji başa düşülməsi .......... 273
2.7. Şair-filosof Anaxarsisin psixoloji görüşləri .......... 279
2.8. Alp ər Tonqanın psixoloji portreti .......... 294
2.9. Əxilərə görə şəxsiyyətin psixoloji formalaşması .......... 301

III FƏSİL. KLASSİK ƏDƏBİ NÜMUNƏLƏRDƏ ŞƏXSİYYƏTİN PSİXOLOJİ PROBLEMLƏRİ .......... 311
3.1. Dədə Qorqudda şəxsiyyətin fərdi xüsusiyyətlərinin tərənnümünün psixoloji mahiyyəti (Dədə Qorqudun psixoloji aləmi) .......... 311

3.2. Nizamidə şəxsiyyəti formalaşdıran motivlər........................... 369
3.3. N.Tusinin "Əxlaqi-Nasir"də şəxsiyyəti psixoloji formalaşdıran metodlar, qaydalar və prinsiplər............................ 427
3.4. Şəxsiyyətlərin psixoloji mənzərəsi........................................ 451

**NƏTİCƏLƏR**................................................................ 497

**ƏLAVƏLƏR**.................................................................... 503

**ƏDƏBİYYAT**................................................................. 527

# GİRİŞ

Şəxsiyyət mövzusu bəşəriyyətin yarandığı gündən başlayaraq bütün dövrlərdə düşüncə sahiblərini düşündürmüş, təbii olaraq bu istiqamətdə ideyaların, konsepsiyaların, müddəaların və nəhayət ideyaların baxışları meydana gəlmişdir. Şəxsiyyətin mahiyyəti – ilkin zamanda dini təlimlərdə, sonra isə təbiət və cəmiyyətin ali şüurlu varlığı olan insanların hərəkət və fəaliyyətində, zəka-idrak sahiblərinin necə qiymətləndirilməsində yüksək səviyyəyə malik olan xüsusi fərd kimi irəli sürülmüşdür. İnsan dünyaya fərd kimi gəlir. Yaşadığı dünyada o, fəaliyyəti, münasibəti, ünsiyyəti, nitqi və bütövlükdə təfəkkür tərzinin məhsullarına görə qiymətlənir. Şəxsiyyət necə öz mənasını tamamlayır, necə formalaşır. O, özü ilə hansı qabiliyyət fərqlərini gətirir? Həyatda hansı keyfiyyətlərə yiyələnir? Bu cür suallara əsrlər boyu cavab axtaran insan - tələbatlarının təsirindən, güzəranından, tələblərindən və psixi normal inkişafından getməkdədir.

Şəxsiyyətin tədqiqi müxtəlif elm sahələrinin problemi olmuşdur. Fəlsəfə, psixologiya, pedaqogika, iqtisadiyyat, sosiologiya, politologiya və s. elmlərin obyektinə çevrilsə də, hələ də şəxsiyyət haqqında tam, bütöv vahid elmi nəticələr əldə edilməmişdir? Bu o demək deyildir ki, şəxsiyyət mövzusu az tədqiq edilmişdir? Sadəcə olaraq şəxsiyyət çox istiqamət təşkil edən bir psixoloji mahiyyətdir ki, onun haqqında təcrübi ümumiləşdirmələrə həmişə ehtiyac vardır. Bu nöqteyi-nəzərdən Azərbaycan ictimai-psixoloji fikrində şəxsiyyət haqqında olan geniş elmi - nəzəri sərvət və təcrübə məktəbi elm tarixinin ilkinlərindən birini təşkil edir və müstəqilliyi ilə diqqəti cəlb edir.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan yazıçılarının X qurultayında (1979) demişdir ki, milli özünüdərk, milli oyanış, dirçəliş prosesi kimi birinci növbədə ədəbiyyatımızdan keçir. Ona görə də biz bu günə kimi ədəbiyyatımızın qəhrəmanlarına şəxsiyyət kimi baxırıq.

Azərbaycan ictimai-psixoloji fikrində şəxsiyyət mövzusu – şifahi və yazılı ədəbiyyat nümunələrində, xalq pedaqogikasında, dini dəyərlərdə, maddi-mənəvi mədəniyyət - incəsənət nümunələrində, psixoloji, fəlsəfə, pedaqoji, psixologiya, ədəbi-bədii əsərlərdə az və çox dərəcədə öz əksini tapmışdır.

Azərbaycan ictimai-humanitar elmi ədəbiyyatında müəyyən fundamental tədqiqatlar vardır. Onlardan xüsusilə filosof sosioloq (Z.Göyüşov, F.Köçərli, F.Qasımzadə, Ə. Daşdəmirov, C.Mustafayev, C.Əhmədli, Ə.Əhmədov, Z.Məmmədov, Ə.Məmmədov, Ə.Əminzadə, və b.), bioloqlardan M.Axundov, psixoloqlar (A.Makolevski, Ə.Zəkiyev, F.İbrahimbəyov, M.Məhərrəmov, Ə.Bayramov, Ə.Əlizadə, B.Əliyev, Ə.Baxşəliyev, S.Seyidov, R.Əliyev, A.Rzayev, K.Əliyeva və b.), pedaqoqlar (Ə.Seyidov, M.Muradxanov, M.Mehdizadə, Ə.Həşimov, İ.Mollayev, Y.Talıbov, Z.Qaralov, Ə.Ağayev, S.Quliyev, F.Rüstəmov və b.) şəxsiyyətin müxtəlif istiqamətlərinə toxunmuşlar. Respublikamızda bir neçə tədqiqat əsəri sırf şəxsiyyət problemlərinə həsr edilmişdir. Bu baxımdan Ə.Bayramovun (4, 5), Ə.Əlizadə (6, 7, 8, 9, 10, 12, 13), Əliyev B.H. (14, 15, 16, 17), Baxşəliyev Ə.T. (18, 19, 21, 21) Əliyev R.İ. (22, 23, 24, 25), Seyidov S.İ. (36, 37), Kazımov N.M.(26, 27, 28), Əliyeva K.R, Qaralov Z.İ. (38, 39, 40), Ağayerv Ə. (29, 30, 31), Rüstəmov F. (32, 33, 34, 35) N.Cərulla qızının (37) fəlsəfi, Ş.Qasımlının (36) fəlsəfi-sosioloji yönümündə yazdıqları əsərlər diqqəti cəlb edir. Bir sıra psixoloji istiqamətlərində namizədlik dissertasiyalarında (38, 39, 40, 41, 42, 43, 44, 45, 46, 47) şəxsiyyətin problemlərinə toxunulmuşdur. Psixologiyadan müdafiə edilən doktorluq işlərində (48, 49, 50, 51, 52, 53, 54) şəxsiyyətinə bağlı müəyyən fikirlərə toxunulmuşdur.

Bu tədqiqatlar bütövlükdə Azərbaycan ictimai-psixoloji fikir tarixinin inkişafı kontekstində - tələbatların təsirləri, güzərançılığın psixi inkişafın təsirlərinin araşdırılması kontekstində öyrənilməmişdir. İndiyə kimi (sovet psixoloji, pedaqoji, fəlsəfi, hüquqi, sosioloji, bioloji ədəbiyyatında şəxsiyyət tərbiyəsi) ümumiyyətlə şəxsiyyətin formalaşması mexanizminin şərhinə aid xeyli nəzəri əsərlər yaran-

mışdır və vardır. Yaradılan bu əsərlərdəki fikirlər sadəcə olaraq böyüyən nəslin tərbiyəsi və formalaşması məsələlərindən bəhs edir.

Bir qisim əsərlər marksist-leninçi metodologiya və partiyalılıq prinsipi əsasında yazıldığından şəxsiyyətin mahiyyətinin düzgün başa düşülməsindən danışmayaraq ən çox onu formalaşdıran irsiyyət və mühit amillərindən danışılır. Şəxsiyyətin düzgün mahiyyətdə başa düşülməsini təkcə ideologiya, irsiyyət və mühitlə bağlamaq ancaq formalaşma amilləri kimi tənqid olunurdu.

Azərbaycanlı şəxsiyyətlər ideoloji baxımdan qiymətləndirilmiş öz layiqli yerlərində olmalarına imkan verilməmişdir. İndi bu problemin sistemli şəkildə tədqiqinə, problemin mahiyyəti və tarixi rolunun obyektiv olaraq öyrənilib üzə çıxarılmasına böyük ehtiyac vardır. Azərbaycan ictimai psixoloji fikrinə müraciət edilməsi - Azərbaycan psixoloji fikir tarixində şəxsiyyət problemi kimi zəngin bir sərvətdən problem baxımından bəhrələnməyə imkanlar yaradır. Problemin aktuallığını nəzərə alaraq "Azərbaycan psixoloji fikir tarixində şəxsiyyət problemi" mövzusunda doktorluq dissertasiyası üzərində işləməyi vacib bilirik. Tədqiqata ən qədim dövrlərdən - XV əsrəqədərki dövrdə yaranmış ictimai-psixoloji fikir sərvəti nümunələri əhatə edilmişdir.

# I FƏSİL

## ŞƏXSİYYƏT HAQQINDA ÜMUMİ TƏSƏVVÜRLƏR. ŞƏXSİYYƏT NƏZƏRİYYƏSİ. PSİXOLOGİYADA ŞƏXSİYYƏT PROBLEMİ

Psixologiya elmində "şəxsiyyət" anlayışının xüsusi yeri vardır. Burada "şəxsiyyət" anlayışı əsas anlayışlar sırasındadır. "Şəxsiyyət" anlayışı son dərəcədə psixolojidir və bütün ictimai elmlərlə, o cümlədən fəlsəfə, sosiologiya və pedaqogika ilə öyrənilir. Psixoloji elmin çərçivəsində öyrənilən psixoloji mahiyyətin spesifikası nədədir və psixoloji nöqteyi-nəzərdən şəxsiyyət nədir?

Psixoloji fikir tariximizdə bu sualın ilk cavabını Bayramov Ə.S., Əlizadə Ə.Ə. vermişlər. Şəxsiyyəti qiymətləndirmək – şəxsiyyətə çevrilmək müəyyən həyat mövqeyi, hər şeydən əvvəl, əxlaqi mövqe tutmaq, öz mövqeyini cəmiyyətin üzvü kimi aydın dərk etmək və onun üçün məsuliyyət daşımaq, özünün əməlləri, işləri, bütün həyatı ilə onu təsdiq (bərqərar) etmək deməkdir [41].

Sualın ikinci hissəsinə cavab verməyə cəhd etsək, bunu etmək o qədər də sadə deyil, çünki şəxsiyyət nədir sualına bütün psixoloqlar müxtəlif cavablar verirlər. Onların cavablarının müxtəlifliyi və fikir ayrılığı şəxsiyyət fenomeninin özünün mürəkkəbliyini sübut edir. Bu barədə İ.S.Konn yazır: "Bir tərəfdən, o, konkret fərdi (şəxsiyyəti) fəaliyyətin subyekti kimi onun fəaliyyət xüsusiyyətlərini (nadir) və onun sosial rolların (ümumi) birlikdə göstərir. Digər tərəfdən isə şəxsiyyət fərdin sosial xüsusiyyəti kimi verilmiş şəxsiyyətin digər insanlarla düzgün və ya dolayı qarşılıqlı təsirinin prosesində əmələ gələn və öz növbəsində onun əməyini idrakın və ünsiyyətin subyekti edən, onda inteqrasiya olunmuş sosial cəhətdən əhəmiyyətli xüsusiyyətlərin toplusu kimi başa düşülür" [42].

Şəxsiyyəti ən çox tədqiq psixoloqlardan biri Olport Q.V. qeyd edir ki, müasir psixologiyanın əsas predmeti - insanın həyatı ilə

bağlı psixoloji mahiyyətdir. Təcrübələrimdən aydın oldu ki, fərdi təbiəti olan, fərqlənən insan şəxsiyyətdir [43].

Elmi ədəbiyyatda olan şəxsiyyətin təriflərindən hər biri [44, 45, 46, 47] eksperimental tədqiqatlarla və nəzəri dəlillərlə əsaslandırılıb. Ona görə onu "şəxsiyyət" anlayışının baxılmasında nəzərə almaq lazımdır. Çox vaxt şəxsiyyəti sosial inkişafın prosesində əldə edilmiş sosial və həyati əhəmiyyətli xüsusiyyətlərini birliyində olan insan kimi başa düşürlər. Beləliklə, şəxsiyyət xarakteristikalarının sayına insanın genotipik və ya fizioloji təşkili ilə bağlı olan insanın xüsusiyyətləri aid etmək qəbul edilməmişdir. Həmçinin şəxsiyyət xüsusiyyətlərinin sayına insanın idrak proseslərinin inkişaf xüsusiyyətləri və fəaliyyətin fərdi üsulu (insanlara və ümumiyyətlə cəmiyyətə münasibətlərdə özünü büruzə verənləri istisna edərək) xarakterizə edən insan xüsusiyyətləri də aid etmək qəbul edilməmişdir. Çox vaxt "şəxsiyyət" anlayışının məzmununa digər insanların münasibətlərində əhəmiyyətli hərəkətləri təyin edən insanın sabit xüsusiyyətləri də daxil edirlər [48, 49, 50, 51, 52, 53, 54].

Şəxsiyyət problemi elmin müxtəlif sahəsində çalışan müxtəlif insanların, dövlət və ictimai xadimlərin, alim və mütəfəkkirlərin illərlə diqqət mərkəzində dayanan mühüm problemlərdən biri olmuş və müasir dövrdə də öz aktuallığını saxlamaqdadır. Müasir psixologiyada şəxsiyyət, onun fəallığı, formalaşması, strukturu kimi məsələlər, ümumiyyətlə şəxsiyyət anlayışının mahiyyəti barədə müxtəlif fikirlər irəli sürülür. Bu bir daha həmin problemin mürəkkəb və çətin olduğunu təsdiq edir [55, 56, 57, 58, 59, 60, 61, 62, 63, 64, 65, 66, 67, 68].

Uzun müddətli tədqiqatlar və onun nəticəsi göstərir ki, insanlar təkcə gözlərinin rənginə, səslərinin tembrinə, barmaq izlərinə, sifət cizgilərinə, baxışlarına və s. görə deyil, şəxsiyyətlərinin xarakteristikasına görə də bir-birlərindən fərqlənirlər. İnsanları gözlərinin rənginə, səslərinin tembrinə və ya digər biofiziki xüsusiyyətlərinə görə xarakterizə etmək olduqca çətindir [69, 70, 71, 72].

Şəxsiyyət anlayışı mürəkkəb anlayışdır. Onun adekvat şəkildə anlaşılmasının çətinliyi bir sıra amillərlə bağlıdır. Həmin mühüm

amillərdən bir neçəsini nəzərdən keçirək. Bir faktı da qeyd etmək lazımdır ki, mühüm amillərin hər birində şəxsiyyətin psixi həyatının bir tərəfi öz əksini tapmışdır. Bu illərdə şəxsiyyətlə bağlı psixologiyada metodoloji böhran var idi. Vyusburq məktəbi və geştaetpsixologiyanın konsepsiyasından çıxış edən Byuler (1879-1963) şəxsiyyəti uşaqların intellektual inkişafı ilə əlaqələndirirdi. K.Byulerin, A.Vallonun (1879-1962) şəxsiyyəti psixi inkişafdan ayıraraq bioloji və sosial amilləri nəzərə almadan sosial mühitin həlledici təsiri ideyasını irəli sürürdülər. Hətta fiziki tələbatı, emosiya və emosional vəziyyətlərdə olmanı uşağın psixi inkişafının həlledici mərhələsi hesab edərək, şəxsiyyət amilləri sırasında əsas götürürdülər.

1. İnsan, şəxsiyyət maddi və toxunula bilən, hiss edilən deyildir. O, bir sıra amillərin, şəraitin, imkanların və determinantların təsiri altında formalaşan psixoloji törəmədir.

2. İnsan şəxsiyyəti bir sıra amillərin təsirinə məruz qalsa da yalnız onlardan asılı bir törəmə kimi şərh oluna bilməz, çünki o formalaşdığı həmin əsası dialektik olaraq rədd edir.

3. İnsan davranışının determinasiyasında şəxsiyyətin mühüm əhəmiyyət kəsb etməsi barədə çoxlu nəzəriyyə və konsepsiya mövcuddur ki, bunların bir çoxunun "şəxsiyyət" anlayışını şərh etməsi ziddiyyətlidir.

4. Nəhayət, şəxsiyyəti anlamaq insan fenomenini anlamaqla birbaşa əlaqədardır. Şəxsiyyət yalnız o zaman insanın əsası, özəyi kimi, onun başlıca parametri, onun eyniləşdirmə vasitəsi kimi şərh oluna bilər ki, antropologiya və insan haqqında biliklər insanın öz təbiətini anlamaq səviyyəsinə yüksəlmiş olsun.

Lakin bütün bu qeyd olunanlar heç də şəxsiyyətin tədqiqi imkanlarının mümkün olduğunu rədd etməyə imkan vermir. Əksinə, şəxsiyyət problemi barədə son nəzəri və eksperimental tədqiqatlar onun öyrənilməsi imkanlarını artırır.

"Şəxsiyyət" sözü azərbaycan, rus və ingilis dillərində maraqlı və faktiki olaraq eyni etimologiyaya malikdir. Azərbaycan dilində "şəxsiyyət" sözü öz əsasını ərəb sözü olan "şəxs" sözündən götürmüş və hər hansı bir konkret şəxsi, simanı bildirir. Rus dilində "şəx-

siyyət" (личность) sözü də "лицо", "личина" (üz, sifət) sözləri ilə bağlıdır. İngilis dilində "şəxsiyyət" mənasını ifadə edən "personality" sözü öz əsasını iki latın sözündən – "per" və "sona" sözlərindən götürmüşdür ki, bu da bir növ "vasitəsilə danışır" mənasını ifadə edir. Sonralar qədim Yunanıstanda və Roma imperiyasında bu söz teatr tamaşasında aktyorun "maskası" şəklində özünü biruzə vermişdir. Adətən, səhnə hərəkətindən asılı olaraq "masqa" dəyişilir, aktyor rola daxil olur. Lakin, yalnız xeyli vaxt keçdikdən sonra "persona" sözü hazırki dövrdə daşıdığı məna yükünü daşımağa başlamış, "personality" – "şəxsiyyət" mənasında işlənməyə başlanmışdır[1].

Qeyd edilənlərdən göründüyü kimi, insanın şəxsiyyəti birbaşa və dolayı mənada onun siması, sifətidir. Birbaşa mənada insanın siması, sifəti onun başlıca identifikatorudur. Məhz onun xətləri, formaları, çevrəsi və digər xüsusiyyətləri əsasında bir adamı başqasından fərqləndirir, onun hansı yaş kateqoriyasına mənsub olduğunu müəyyənləşdirə bilirik. Təsadüfi deyildir ki, şəxsiyyəti eyniləşdirməklə bağlı bütün sənədlərdə onun sifətinin (üzünün) şəkli olması tələb edilir. Bununla yanaşı olaraq bizim sifətimiz emosiyalarımızın, hisslərimizin, əhvalımızın, vəziyyətimizin, istəklərimizin ifadəçisinə çevrilir, o bizə təkcə verbal yolla deyil, qeyri-verbal yolla da, zəngin mimiki imkanlarımızın köməyilə də ünsiyyətə girmək imkanı verir. Dolayı mənada, insan şəxsiyyəti onun "ruhunun", başqa sözlə, onun bütün psixi təzahürünün "sifətidir". İnsana məxsus olan fərdi-psixoloji xassələrin təzahür xüsusiyyətlərinə, onun ünsiyyət üslubuna, davranışına, fikir və ideyalarına görə onu aydın eyniləşdirməyimiz və onun gələcək davranışının istiqamətini proqnozlaşdırmağımız heç kimdə şübhə doğura bilməz.

Bütün yuxarıda qeyd olunanları nəzərə alaraq deyə bilərik ki, şəxsiyyət fərdin özünü cəmiyyətlə eyniləşdirməsinə imkan verən davamlı fiziki və psixi xarakteristikasının məcmuundan ibarətdir.

Şəxsiyyət insanın psixoloji siması olub, şüura, mənliyə malik olan, öz hərəkətlərinə cavabdeh, ictimai münasibətlərin fəal iştirak-

---

[1] Seyidov S.İ. və Həmzəyev M.Ə.-nin elmi redaktorluğu ilə "Psixologiya". Bakı: Nurlan, 2009, 692 s.

çısı olan adamdır. Şəxsiyyət müəyyən ictimai-tarixi dövrdə yaşayıb fəaliyyət göstərən, gerçəkliyi dərk edib müəyyən istiqamətdə dəyişdirən, ünsiyyətə girməyi bacaran konkret canlı insandır.

Şəxsiyyət strukturunun baxılmasında ona adətən qabiliyyətlərini, temperamentini, xasiyyətini, motivasiyanı və sosial məqsədlərini daxil edirlər.

Qabiliyyət-fəaliyyətin müxtəlif növlərində insanın müvəffəqiyyətlərini təyin edən insanın fərdi, sabit xüsusiyyətləridir.

Temperament-insanın psixi proseslərin dinamik xarakteristikası, xasiyyət – insanın digər insanlara münasibətini təyin edən keyfiyyətdir. Motivasiya – fəaliyyətə həvəsi oyadan səbəblərin məcmusu, sosial məqsədlər-insanların məsləkləridir. Ə.S. Bayramov, Ə.Əlizadə (5) birgə tədqiqatlarında bu barədə göstərirlər (Sos. psix. kitabı, səh. 51, 52).

Şəxsiyyət fərdiyyət deyil, necə deyərlər, şəxsiyyətsiz şəxsiyyətdir, başqa sözlə sosial tipdir. İctimai həyatın subyektidir (Q.M.Andreeva, V.A.Yadov, E.V.Şoroxova və b.). Q.M.Andreevanın fikrincə, şəxsiyyətin sosial tipologiyası sosiologiya üçün başlıca problemdir. Sosiologiya sosial psixologiya ilə həmsərhəd olan problemlərə, məsələn, sosializasiya problemlərinə də elə bu aspektdən yanaşır.

Bəs, ümumi psixologiyada şəxsiyyət problemi hansı ölçülərlə açıqlanır? Məşhur Amerika psixoloqu Q.V.Olporta görə, şəxsiyyət fərdin davranış və təfəkkürünü müəyyən edən psixofiziki sistemlərin dinamik təşkilidir. Bəzi anlamları açıqlayaq.

1. Q.V.Olportun fikrincə, şəxsiyyət nə mental, nə də müstəqil olaraq sinir hadisəsi deyil. O, bu məsələyə konseptual əhəmiyyət verirdi və elə buna görə də şəxsiyyəti psixofiziki sistemlərin dinamik təşkili kimi səciyyələndirirdi.

2. Bu təfsirdə "dinamik təşkil" anlamının özünəməxsus evristik mənası vardı. Q.V.Olport "psixofiziki sistemin dinamik təşkili" dedikdə şəxsiyyətdə cismani və psixi olanın vəhdətini başa düşürdü və vaxtilə R.Dekartın irəli sürdüyü psixofiziki paralelizm prinsipinin əleyhinə çıxırdı.

3. A.V.Petrovski və M.Q.Yaraşevskiyə dörə: psixologiyada şəxsiyyət dedikdə, fərdin əşyavi fəaliyyətdə və ünsiyyətdə mənimsədiyi

sistemli (sosial) keyfiyyətlər nəzərdə tutulur. Bu keyfiyyətlər fərddə ictimai münasibətlərin təmsil olunma səviyyəsini səciyyələndirir.

Vaxtilə K.K.Platonov şəxsiyyətin strukturunda aşağıdakı yarımstrukturları fərqləndirirdi:

1. Bioloji cəhətdən şərtlənən yarımstruktur (temperament, cins, yaş xüsusiyyətləri, bəzi hallarda psixikanın patoloji xassələri).

2. Şəxsiyyətin xassələrinə çevrilmiş ayrı-ayrı psixi proseslərin fərdi xassələri (hafizə, emosiyalar, duyğular, təfəkkür, qavrayış, hisslər və iradə).

3. Sosial təcrübə yarımstrukturu (insanın mənimsədiyi biliklər, vərdişlər, bacarıqlar və adətlər).

4. Şəxsiyyətin istiqaməti yarımstrukturu (həvəslər, arzular, maraqlar, meyllər, ideallar, əqidə).

Q.M.Andreeva bu araşdırmaları təhlil edərək göstərir ki, sosioloji cəhətdən yanaşmada şəxsiyyət sosial münasibətlərin obyekti kimi nəzərdən keçirilir. Ümumi psixoloji kontekstdə isə fərdin psixi fəaliyyətinin ümumi mexanizmləri açıqlanır. Halbuki, şəxsiyyət ictimai münasibətlərin nəinki obyekti, həm də subyektidir. Sosial psixologiyanı şəxsiyyət elə bu kontekstdə maraqlandırır.

Q.M.Andreevanın fikrincə, sosial psixologiya şəxsiyyətə ümumi psixologiyada verilmiş tərifdən istifadə edir, lakin belə bir məsələni açıqlayır ki, şəxsiyyət, bir tərəfdən, sosial təcrübəni hansı konkret qrupda mənimsəyir, digər tərəfdən, özünü bu qrupda necə reallaşdırır. Başqa sözlə, sosial psixologiya şəxsiyyətin davranış və fəaliyyətni real konkret qruplarda öyrənir. Şəxsiyyətin qrupla qarşılıqlı münasibətləri və onun qrupda ünsiyyətinin xüsusiyyətləri sosial psixologiya üçün köklü problemdir. Bu problemi təhlil etmək üçün cəmiyyətin məhz hansı qrup vasitəsilə şəxsiyyətə təsir göstərməsini araşdırmaq (Q.M.Andreeva), onun "Mən-konsepsiya"sını açıqlamaq, "Coqari pəncərəsində" davranışın xüsusiyyətlərini ayırd etmək, sosial münasibətləri necə qiymətləndirməsini aydınlaşdırmaq, sosial yönəlişlərinin qanunauyğunluqlarını öyrənmək, sosializasiya prosesinin xüsusiyyətlərini nəzərdən keçirmək zəruridir.

Bundan əlavə bəzi müəlliflər (İ.S.Kon (70), E.Bern (75), A.Maslou (74)) şəxsiyyətin strukturuna irad və emosiyalar kimi anlayışları da daxil edirlər. İş ondadır ki, psixi hadisələrin strukturunda psixi proseslərin, psixi vəziyyətlərini və psixi xüsusiyyətlərini ayırmaq qəbul edilmişdir. Psixi proseslər öz növbəsində idrak, irad və emosional proseslərə bölünür. Beləliklə, irad və emosiyalar psixoloji proseslərin çərçivəsində müstəqil təzahürlər kimi baxılmaq üçün bütün əsaslara malikdir. İlk öncə antik psixologiyaya müraciət edək.

Ruh haqqında anlayış hələ çox qədim zamanlardan mövcud olub. Bu anlayışlar ibtidai insanların mifologiyaya inancları nəticəsində meydana gəlmişdir. Qədim dünyada poeziya, nağıllar və eləcə də dinlə bağlı işlərdə ruha böyük maraq göstərirdilər. Ruh, burada qeyri-təbii bir varlıq kimi, "İnsan daxilində insan" kimi psixoloji mahiyyətdə özünü göstərirdi. İnsanın yuxu və ölüm zamanı sakitliyini də ruhun bədəndən yox olması ilə ifadə edirlər. Belə ki, ölüm zamanı ruh bədəni tamamilə tərk edir, lakin yuxu zamanı ruh bədəni müvəqqəti olaraq tərk edir.

Psixologiya fəlsəfə ilə birlikdə ibtidai icma quruluşunun quldarlıq dövrü ilə əvəz olunduğu vaxtda meydana gəlmişdir. Demək olar ki, bütün ölkələrdə eyni vaxtda yaranmışdır, məsələn: Şərqdə Qədim Hindistan, Qədim Çin, Qərbdə-Qədim Yunanıstan və Qədim Romada. Psixoloji problemlər fəlsəfənin bir hissəsi olub lübaddən meydana gəlmişdir. Xalqlar arasındakı təmas, qarşılıqlı əlaqə onların tarixi inkişafında daim psixoloji amil olmuşdur.

Məlumdur ki, Qədim Yunanıstan Yaxın Şərqin ölkələri ilə zəngin əlaqədə olmuşdur. Məsələn: Suriya, Misir və s. Məhz əlaqələrdə Yunanıstanda antik dövrdə fəlsəfənin klassik forması şəklində psixoloji biliklər, bacarıq və vərdişlər formalaşmışdır. Bu formalaşmada ruhla bağlı təsirlər özünü göstərirdi. Ondan isə psixoloji fikirlər başqa qonşu ölkələrə də siyarət edirdi. İlk növbədə Qərbi Avropada psixoloji təsəvvürlər inkişaf edirdi.

Qədim Yunanıstanda psixoloji fikirlər antik fəlsəfə məktəblərinə uyğun olaraq inkişaf etmişdir.

1. Milet məktəbi: nümayəndələri: Fales, Anaksimandr, Anaksimen, Hekalit və b.

2. Pifaqor məktəbi: Ən tanınmış nümayəndələri: Pifaqor, Alkmeon, Filolay.

3. Eleya məktəbi: nümayəndələri: Eleatlar, bütövlükdə, Ksenofan, Parmenid, Zenon, Empedokl, Anaksaqor.

Ayrı-ayrı psixoloji mahiyyətlərin başa düşülməsində (şəxsiyyətlə bağlı, ruh haqqında, idrak prosesləri ilə fikir ayrılıqlarına görə) Sofistlər (Protaqor, Gorgiy, Prodik, Frazimah, Hippiy, Antifont)

Öz fikirləri ilə Sofistlərə yaxın olanlar: Levkin, Demokrit, Epikur.

4. Platon məktəbi: Platon, Fedon, Parmenid və b.

5. Aristotel məktəbi.

Fales haqqında xeyli sayda aforizmlər söylənilir və bunların hamısı ya dostları, ya da şagirdləri tərəfindən söylənilib. Bu aforizmlərdə insanın-şəxsiyyətin psixi həyatının elmi təhlili verilmişdir. Fales deyəndə ki, həyatla ölümün heç bir fərqi yoxdur (*insan üçün də şəxsiyyət üçün də - T.Məmmədov*) eşidənlərdən biri soruşur: - Bəs onda niyə ölmürsən? – Çünki fərqi yoxdur.

– Ən ağlasığmaz şey nədir?

– Tiranı qoca görmək.

– Ən güclü şey nədir?

– Zərurət.

– Hamı üçün ümumi olan nədir?

– Ümid.

– Ən çətin şey nədir?

– Öz-özünü dərk etmək.

– Ən asan şey nədir?

– Başqasına məsləhət vermək.

– Bədbəxtliyi nə vaxt yüngül keçirmək olar?

– Düşmənini daha pis vəziyyətdə görəndə, (Ə.Nicat, "Dünya fəlsəfi irsindən yarpaqlar" Bak-1991, səh. 23.)

Məşhur şəxsiyyətlər Falesi müxtəlif cür qiymətləndirmiş və bir sıra psixoloji mahiyyətlərə münasibətdə fərqləndirmişlər.

**Aristotel.** Xatırlayırlar ki, əgər Fales həqiqətən, dəmiri hərəkətə gətirdiyinə görə daşın ruhu olduğunu öyrədirdisə, o ruhun hərəkət verən şey olduğunu fərz etmişdir.

**Aetsi.** Fales birinci olaraq demişdir: ruhun təbiəti elədir ki, o, əbədi hərəkət, yaxud öz-özünə hərəkətdədir.

Falesə görə Zəka kainatın tanrısıdır, hər şey canlıdır və iblislərlə doludur.

Svida Falesin kəlamları olduqca çoxdur, məşhur "Özünü dərk et" kəlamı da onlardandır. (Qədim yunan fəlsəfəsi antologiyası. Bakı – 2005. səh. 13).

Qədim dünyamızın ən böyük şəxsiyyətlərindən biri Hippokrat (b.e.ə. 460-370) olmuşdur. O, psixologiyanın inkişafına böyük töhvələr vermişdir. O da Demokrit kimi özündən əvvəlki tibbi bilikləri, demək olar ki, hamısını öyrənmiş, sistemə salmışdır.

Hippokrat tibbi biliklərin empirik xarakter daşıdığının tərəfdarı idi. O, sübut edirdi ki, xüsusi tədqiqatlar aparmadan, yalnız quru mühakimələrin əsasında düzgün fikir söyləmək olmaz. Hippokrat Heraklitin ətraf mühitin dörd başlanğıcdan yarandığını qəbul edirdi, lakin o belə hesab edirdi ki, insan həyat gücünü havadan alır. Hippokrat özünün məşhur temperament tiplərini işləmişdir. Temperament dedikdə, o, şəxsiyyətin həm fərdi anatomik-fizioloji, həm də psixoloji xüsusiyyətlərini nəzərdə tutmuşdur.

Hippokrat belə güman edirdi ki, temperament bədəndə olan dörd mayenin nisbəti ilə müəyyən olunur. Həmin mayelər qan (latınca "sanqvis"), limfa (yunanca "fleyma"), öd (yunanca "xoll") və qara öd (yunanca "melena xoll") adlanırdı. Şəxsiyyəti xarakterizə edən temperamentin dörd tipinin – sanqvinik, xolerik, fleqmatik və melanxolik tiplərinin adı da sonralar elə buradan götürülmüşdür. (R.Əliyevin psixologiya tarixi. B. 2006, səh.79). Hippokrata görə şəxsiyyət bədəni göstərdiyimiz bu dörd maddənin qarışığından ibarətdir. Onların orqanizmdə miqdarından asılı olaraq, insan ya xəstə, ya da sağlam olur.

Hippokrata görə, şəxsiyyətin *psixi xassələri* (*kursiv bizimdir. – T.M.*) ilk növbədə dörd maddənin insanın keçdiyi həyat yoluna,

həyat şəraitinə inikasının təsirlərinə görədir. Bu dörd maddənin bədəndə normal olması psixi proseslərin normal baş verməsinə - şəxsiyyətin psixoloji xassələrinə çevbrilə bilər. Bir adamı başqasından fərqləndirən davamlı və mühüm psixi xüusiyyətlər 4/1 nisbəti mahiyyətlərində şəxsiyyəti müxtəlif vəziyyət və hallarda saxlayar. Belə hallarda şəxsiyyət üçün nə xarici aləm, nə daxili aləm onu təmin edə bilməz, nəyin isə dəyişdirilməsi prosesi yoxa çıxar.

Anaksaqor (e.ə. 500-423) psixologiyasına görə, kainat sonsuz dərəcədə kiçik və əbədi hissəciklərdən təşkil edilib. O, bu hissəcikləri şeylərin toxumu edib "homoeomerlər" adlandırmışdır.

Anaksaqora görə, ağıl ("nus") ən incə və yüngül materiya kimi zərrəcikləri birləşdirir, ayırır və hərəkətə gətirir. Bu fikrinə görə, onun özünə "ağıl-nus" ləqəbini vermişlər (Dünya fəlsəfə antologiyası. I c. M., 1969, səh 3-8).

Yaşadığı dövrdə və sonrakı illərdə Anaksimandr haqqında xeyli fikirlər söylənilmişdir. Plutarx, Sumr, Anaksimandra görə, ilk insanlar balıqlardam törənmiç və xallı köpək balıqlarının etdiyi kimi, öz-özlərinin köməyinə gəlməyi bacarmaq dərəcəsinə qədər böyüdükdən sonra onlar tərəfindən qaytarılmış və quruya çıxmışlar. Bu fikri Pavlov insan (şəxsiyyət) orqanizminin beyin fəaliyyəti formasında olan ali uyğunlaşma vəzifələrini öyrənməklə müəyyən dəyişikliklər etdi. (A.Qarayev. Böyük rus alimi, müasir fiziologiyanın banisi İvan Petroviç Pavlov. Bakı - 1949, səh. 9).

Psevdo-Pentarx Strom: Anaksimandr bir də onu deyir ki, ilk insan (*şəxsiyyət – T.M.*) başqa qəbildən olan canlılardan əmələ gəlmişdir. Heyvanlar tez bir zamanda özləri qidalanmağa başlayır və yalnız insanın uzun müddət əmizdirilməyə ehtiyacı var. O, elə ona görə salamat qalmışdır ki, lap əvvəldə (indiki kimi) deyildi.

**Aetsi.** Anaksimandrın təliminə görə, ilk canlı məxluqlar nəm yerdə yaranmışdır. Onlar tikanlı ağacla örtülü imiş. Sonra onlar quruya çıxmış, onların ağacı dağılmış və tezliklə onlar həyat tərzini dəyişmişlər.

Aetsi. Anaksimanrdra görə yer daş sütuna oxşayır.

**Simplitsi Phus.** Anaksimanrdra görə, törəniş ünsürün dəyişməsi yolu ilə deyil, əksliklərin daimi hərəkəti sayəsində ayrılmasından baş verir... Əksliklər isə bunlardır:

İsti və soyuq, quru və nəm... başqaları. Anaksimandr inkar edirdi ki, saysız-hesabsız dünyalar tanrılardır. O, dünyanı fani hesab edirdi.

**Heraklit** (e.ə. 540-480). Qədim yunan filosofudur. Öz fikirlərini "Təbiət haqqında" adlı əsərində ifadə etmişdir. Əsər itdiyindən onun yaradıcılığı dost və müasirlərinin yaradıcılığında qalmışdır.

Heraklitə görə, psixoloji mahiyyətcə hər şey oddan əmələ gəlir.

Aetsi. Heraklit öyrədir ki, əbədi dövran edən (tanrıdır), tale isə əks meyllərdən mövcudluğu yaradan loqosdur (zəkadır).

Stobey Flo. Dərrakə çox böyük məziyyətdir, müdriklik də həqiqəti söyləməkdən və təbiətə etina göstərərək onunla uyğun fəaliyyətdən ibarətdir.

Diogen Laretsi. Xalq qanun uğrunda öz ev-eşiyi uğrunda olduğu kimi mübarizə aparmalıdır.

Kliment Strom. Ən ləyaqətli insanlar – (*şəxsiyyətlər – T.M.*) bir şeyi hər şeydən üstün tuturlar: əbədi şöhrəti-keçici şeylərdən. Əksəriyyət isə heyvan kimi həddən artıq doydurulmuşcasına yaşayır.

**Stobey Flor.** İnsanın xasiyyəti onun şeytanıdır.

**Pentarx Coriel.** Ehtirasla mübarizə aparmaq çətindir. Axı ürəyin arzusu ruhun hesabına həyata keçir.

**Albert Velikiy.** Xöşbəxtlik bədənin çəkməsində olsaydı, onda biz öküzləri yemək üçün noxud tapanda xoşbəxt adlandırardıq.

Stobey Flor. İnsanların bütün arzuları yerinə yetsəydi belə, onlara daha yaxşı olmazdı.

Kliment Strom. Dərin düşünən adam (*şəxsiyyət – T.M.*) da yalnız zahiri olanı dərk edir və onu əzizləyir. Lakin yalançıları və yalançı şahidləri cəza tapacaqdır.

Sekst. Bu zəka əbədi mövcud olsa da insanlar həm bir şey eşitməzdən əvvəl, həm də ilk dəfə eşidəndən sonra başa düşməyən olurlar. Baxmayaraq ki, (hər şey) bu zəka üzrə baş verir, onlar hər bir

şeyi onun mahiyyətinə görə fərqləndirərək və onun necə olduğunu aydınlaşdıraraq mənim ölçüb-biçdiyim sözlərə və işlərə girişərkən təcrübəsiz görünürlər. Onlar özlərinin yuxuda etdiklərini yaddan çıxardıqları kimi, ayıq olduqda etdikləri də başqa insanlardan gizli qalır.

**Diogen Laretsi.** Ruhun hüquqlarına getməklə, hətta bütün yolu getsən belə onları tapmayacaqsan: o belə dərin loqosa malikdir.

Stobey Flor. Düşüncə hamıya xasdır.

Sekst. Heraklitin fikrinə görə də insan həqiqəti dərk etməyin iki vasitəsinə malikdir: hissi qavrayışa və loqosa.

Stobey Flor. Ruha öz-özünə zənginləşən loqos xasdır.

Kliment. Gecə isə (ölərək) *insan – şəxsiyyət* (*kursiv bizimdir – T.M.*) insan özü öz ruhunu adlandırır: onun gözləri sönsə də o sağdır.

İnsanların ölümündən sonra inanmayacaqları və təsəvvürlərinə gətirmədikləri (şey) gözləyir.

Pifaqor məktəbi eramızdan əvvəl VI əsrin sonuncu üçdə bir hissəsindən eramızdan əvvəl IX əsrin ikinci yarısına qədər – iki yüzillik müddətdə mövcud olmuçdur. Pifaqor özü (e.ə. 560-500) illərdə ömür sürmüşdür.

Pifaqor necə adam (*şəxsiyyət – T.M.*) olub, onun müdrikliyi nədədir?

Qədim müəlliflәin fikirlərinə görə, Pifaqor heç nə yazmayıb, öz biliyini – psixoloji mahiyyətini, dünyagörüşünü şifahi yayaıb. Onun elmi-psixoloji fikirləri və kəlamları antik filosof və tarixçilərin əsərlərində misal çəkilir.

Pifaqor haqqında bizə gəlib çatmış aforizmlərdə nə qədər psixoloji mahiyyətlər gizlənir. Onların bəziləri ilə tanış olaq. "Yoxsulun həyatı sahilə yaxın üzən gəmidir, varlınınkı isə dənizin ortasında. Birinci sahilə asan yan ala bilər, ikincisi isə çətin".

– Həmişə doğru danışsan, Allahlara bənzərsən.

– Həyat meydandır, kimi yaşamağa gəlir, kimi alverə. Amma xoşbəxt tamaşaya gələnlərdir.

Pifaqordan soruşdular:

– Oğlum olsa, necə tərbiyə edim?

– Ədalət olan ölkədə doğulsa bəsdir.

Pifaqorun iki məşhur fikri *fəlsəfə - psixologiya* (*kursiv bizimdir – T.M.*) tarixində dərin iz buraxıb. Bunlardan biri ruhun bir canlıdan başqa bir canlıya keçməsi, ikincisi isə hadisələrin və talelərin dönə-dönə təkrarı, dövranı haqqında mülahizələrdir. Fəlsəfə tarixçisi (*psixologiya tarixçisi – T.M.*) neoplatonçu Prfiri bu barədə belə yazmışdır: "Pifaqorun fikrincə, ruh ölməzdir, dünyada baş verən bütün hadisələr müəyyən fasilədən sonra yenidən təkrar olunur. Ümumiyyətlə, təzə heç nə baş vermir."

(Diogen Laretski. Məşhur filosofların həyatı, təlimi və aforizmləri. M., 1979, səh. 332)

Aristotel. Metarh deyirdi: Pifaqorçular duyğularla qavrayışın cismlərdə, ədədlərdə olan bir çox xassələri görərək, şeylərin ədədlər olduğunu, ancaq mövcud olan ədədlər deyil, onların fikrincə, şeyləri təşkil edən ədədlər olduğunu elan etmişlər. Axı nəyə görə? Ona görə ki, ədədlərin xassələri səma quruluşunda, musiqi harmoniyasında və bir çox başqa şeylərdə bulunur. Bununla belə, yalnız riyazi ədədləri qəbul edənlərin, onların müqəddəm şərtləri ilə əlaqədar buna bənzər bir şeyi iddia etmək imkanı yoxdur... Aydındır ki, riyazi predmetlər ayrıva mövcud deyil; əgər onlar ayrıca mövcud olsaydılar, onların xassələri cizimlərə xas olmazdı (Qədim yunan fəlsəfəsi antologiyası. Bakı, 2005, səh.23).

Bu filosoflar yalnız ruhun necə olduğunu göstərməyə çalışırlar, ruhu qəbul etməli olan vücud haqqında isə onlar daha heç bir izahat vermirlər, sanki, pifaqorçu əsatirlərində deyildiyi kimi, hər bir ruhun hər bir vücudda təcəssüm etməsi mümkündür.

Pifaqorçulardan bəziləri havada uçuşan tozcuqların elə ruhu təşkil etdiyini, başqaları isə ruhun onları hərəkətə gətirən şey olduğunu sübut etməyə çalışırdılar.

... Ruh müəyyən bir harmoniyadır, harmoniya isə əksliklərin qarşılığı və uyğunluğudur, vücud da əksliklərdən təşkil olunmuşdur.

Ruh haqqında materialist nəzəriyyə materialist fəlsəfənin psixologiyanın tərkib hissəsi kimi inkişaf etmiş və b.e.ə. VI əsrdə Qədim Misir psixoloji fikrinin tarix forması olmuşdur. Antik materia-

lizmin zirvəsi atom materializmi olmuşdur. Onun banisi Demokrit və onun müəllimi levkipp (b.e.ə. V) idi. Demokrit ibtidai quruluşun inkişafı dövründə fəaliyyət göstərmişdir. O dövr qədim yunan elminin, incəsənətinin (arxitektura, heykəltaraşlıq) və ədəbiyyatının çox böyük yüksəldiyi dövr idi.

Antik atom materializminə yeni fikirləri stoiklər gətirmişdir. Onlar dünyanın təkamül mərhələlərinin psixoloji qanunauyğunluqlarla bağlılığı istiqamətini işləyib hazırlamışdır. Ən birinci mərhələdə ən incə zərrəcik – od atomu mövcuddur. Sonra isə ağırlaşmaya doğru hərəkət başlamışdır. Dünyanın yaranmsının stoiklər adi odun buxara oxşar hala çevrilməsinə bənzədirdilər. Daha sonra isə ondan cansız təbiət, sonra bitkilər, heyvanlar və insan yaranmışdır. Sonra isə geri proses başlanır və hər şey yenidən od buxarı şəklini alır. Dünya silsiləsi burada sona çatır.

Dünyanın həyatı daim təkrar olunan dövrlərdən təşkil olunmuşdur. Beləliklə, dünya üzərində iki başlanğıc hökm sürür: yaranma və məhv olma qanunauyğunluqları və insan həyatının taleyi.

Antik psixologiyada şəxsiyyəti tanımaq üçün müəyyən mərhələdən istifadə olunur:

1. İnsanın (şəxsiyyətin) həyat tərzi və davranışı.
2. Sözləri və yazıları. Müdriklərin şəxsiyyət haqqında fikirləri. İndiyə qədər gəlib çatmış aforizmlər.
3. Onun tərəfindən formalaşdırılmış və yetişdirilmiş şəxslər.
4. Yaratdığı əsərlər.
5. Başqalarının şəxsiyyət haqqında ümumi fikirləri.

Antik psixologiyada şəxsiyyət ən çox aşağıdakı psixoloji mahiyyətlərə görə qiymətləndirilmişdir:

1. Antik materializmdə ruh necə qiymətləndirilib;
2. Hissi proseslərdə şəxsiyyət necə mənalanıb;
3. Platonun psixologiyasında şəxsiyyət;
4. Aristotelin ruh nəzəriyyəsində şəxsiyyət və mühit;
5. Şəxsiyyətin iradə və xarakterinə münasibətlərə baxış.

Demokrit ruhu bədən hərəkətinin səbəbi kimi başa düşürdü. Ruh maddidir və ən xırda, dairəvi, hamar, qeyri-adi hərəkətli, bütün

insan orqanizminə yayılmış atomlardan ibarətdir. Demokritə görə, ruh ölümə məhkumdur və bədənlə birlikdə məhv olur. Biz nəfəs aldığımız zaman ruhumuzun hissələrini təşkil edən hissəcikləri daxilimizə alırıq, nəfəs verdiyimiz zaman isə ruhumuzun bir hissəsini xaricə atırıq. Deməli, bizim ruhumuz daim hər nəfəs aldıqca təzələnir. Demokrit belə düşünürdü ki, ruh hamıya məxsusdur, hətta ölüyə belə. Lakin ölmüş insanın çox az ruhu vardır. Beləliklə, Demokrit belə bir nəticəyə gəlmişdir ki, həm bitkilərin, həm də daşların ruhu vardır.

Xəstəlik atom tənasübünün dəyişikliyidir. İnsan qocalan zaman hərəkətli atomların miqdarı azalır. Hissi orqanlarda xırda atomlar xarici aləmə daha yaxındır və xarici qavrama üçün uyğunlaşmışdır. Alicənab hisslərin orqanı ürək, hissi arzuların və meyllərin orqanı isə qara ciyərdir.

Epikür, Lukresiy və eləcə də başqa stoiklər Demokritin ruh haqqında düşüncələrini təkmilləşdirirdilər. epikürün fikrinə görə, ruh yalnız hiss edə bilən məxluqa aiddir. Stoiklər ruhun səkkiz hissəsini ayırd etmişdir: idarəedən başlanğıc (insanlarda idrak, heyvanlarda instinkt) və ondan əmələ gələn yeddi hissə. Bunlardan beşi hisslərdir. Görmə, eşitmə, dadbilmə, iy bilmə, toxunma hissi. Görmə idarə edən hissədən gözə qədər olan hava boşluğudur, eşitmə- idarə edən hissədən qulağa qədər olan hava boşluğudur və s. Digər hissə Zenonun səs adlandırdığı hissədir. O, idarə edən hissədən boğaza, dilə qədər yayılmış hissədir.

Zenon (e.ə. VI əsr) Eleyli Zenon kimi tanınan bu qüdrətli şəxsiyyət qədim yunan filosofu-psixoloqudur. O, Parmendin oğulluğu və sevimli şagirdi olmuşdur. Elm tarixində Zenon həm də dialektikanın yaradıcısı kimi tanınır. O, doğma şəhərində - hakim Tiran Hearka qarşı sui qəsddə iştirak etmişdir. tutulub dindirilərkən Hearxın – yoldaşın kimdir? sualına belə cavab vermişdir: - Sən ey şəhərimizin bəlası. Sonra yoldaşlarına tərəf dönüb: - Tiranın qabağında niyə sürünürsünüz, sizə əzab verəcəyindən qorxursunuz? – demiş və dişiylə dilini parçalayıb Hearxın üzünə tüpürmüşdür. Bunu görən camaat həyəcana gəlib Tiranı daşqalaq edib öldürmüşlər.

Zenon bir psixoloq kimi öz məşhur paradoksları ilə məşhurdur. Onun fikrincə yalnız dünyalar mövcuddur, kainatda heç bir boşluq yoxdur. Təbiət isti və soyuqdan, quru və yaşdan, onların müxtəlif birləşmə və çevrilməsindən əmələ gəlib. İnsanlar torpaqdan yaranıb, ruh isə dörd ünsürün birləşməsidir.

Zenon psixologiyasında əsas xüsusiyyət – *şəxsiyyətin (kursiv bizimdir – T.M.)* öz təəssürat və hərəkətləri haqqında özünə hesabat verməsi, insanın özünü idarə etməsi, öz işini planlaşdırması, qabaqcadan məqsədə çatmaq vasitə və yolları və s.-dən ibarətdir.

Şəxsiyyətin psixoloji mahiyyətində əgər çoxlu şeylər mövcuddursa, onda onlar həqiqətdə nə qədər varsa, düz o qədər də olmalıdırlar, qətiyyən özlərindən nə az, nə də çox ola bilərlər. Əgər onlar olduqları qədərsə, onda sayca məhduddurlar. Əgər çoxlu şeylər mövcuddursa, onda varlıq sayca sonsuzdur. Çünki ayrılıqda olan şeylərin aralarında başqa şeylər də olmalıdır, onların da aralarında yenə başqaları və bu minvalla varlıq sayca sonsuzdur.

Zenon psixologiyasında varlığın inikası dörd paradoksa əsasən müəyyənləşir:

1. Əgər mövcudluq çoxluqdursa, onda o həm böyük, həm də kiçikdir; o qədər böyükdür ki, ölçüsünə görə hüdudsuzdur və o qədər kiçikdir ki, əsla ölçüyə malik deyildir.

2. Ən yavaş qaçan məxluq, heç vaxt ən yeyin qaçanla qovulub tutula bilməz, çünki təqib edən əvvəlcə qaçanın hərəkətə başladığı yerə gəlməlidir, belə ki, daha yavaş hərəkət edən həmişə müəyyən üstünlüyə malikdir.

3. Uçan ox hərəkətsizdir, bu, zamanın ayrı-ayrılıqda "indilərin" cəmlənməsi fərziyyəsindən irəli gəlir.

4. Mühakimə meydanda qarşı tərəflərdən eyni sürətlə hərəkət edən iki bərabər kütlələrə aiddir. Belə çıxır ki, zamanın yarısı onun ikiqat miqdarına bərabərdir. (Qədim Yunan Fəlsəfəsi Antologiyası; Bakı – 2005, səh. 34).

Antik atom materializmində iki növ dərketmə mövcuddur – duyğu, hiss (qavrayış) və təfəkkür. Dərketmənin əvvəli və mənbəsi duyğu və qavrayışdır. Duyğular heç vaxt bzii aldatmır. Qavrayış tə-

bii fiziki proses kimi gözdən keçirilir. Duyğunun davamı təfəkkürdür. Demokrit onu qavrayışın aydın üsulu kimi adlandırır.

Demokritə və eləcə də Epikura və Lukresiya görə dərketmə elə bir prosesdir ki, burada hissi pillə təfəkkürdən ayrılmır, baxmayaraq ki, onlar şərtsiz fərqlənirlər. stoiklər daxili və xarici təfəkkürü ayırmışdır. Daxili idrak - əşyaların münasibətlərini izləmək qbiliyyətdir və qavrayış nəticəsində yaranır. Xarici təfəkkür və ya xarici nitq – nitq təfəkkürüdür, daxili fikirlərin xarici fikirlərə çevrilməsidir.

Atom materializmi sistemində hisslər, etik problemlər ilə əlaqədə və etikanın təməli kimi baxılır. Demokrit xeyir və zərərlilik göstəricisi kimi məmniniyyət və narazılığı göstərirdi. Məmnuniyyət və narazılıq nəyə can atmaq və nıdır qaçmaq meyarı kimi qiymətləndirilir.

Demokritə görə "həyatın məqsədi ruhun yaxşı, sakit vəziyyətidir". Epikür iddiasına görə, həyatın məqsədi həzz, məmnuniyyətdir. Məmnun vəziyyət üçün daim ruhi həyəcandan uzaq olmaq lazımdır. Ateist olan Epikür, dogərləri kimi Allahın varlığını inkar etmirdi, lakin onlar haqqında düzgün təsəvvürə çağırırdı. "Əgər biz bir şeyə diqqətlə yanaşsaq, o zaman qorxunun, təlaşın, həyəcanın səbəbini ayırd edə bilərik."

Epikür (e.ə.342-271) məşhur yunan filosofu-psoxoloqudur. Antik dünyanın üçüncü fəlsəfi-psixoloji məktəbini (e.ə. 307-ci ildə) açaraq "Epikür bağı" adı ilə tanınan antik dövrün ən nüfuzlu məktəblərindən birinin təməlini qoymuşdur. Epikürün təlimini əsas müddəalarını ifadə edən yalnız üç məktubu qalmışdır.

"İndi gizli olanı (duyğularla qavranılmayanı) ilk növbədə mövcud olmayandan heç bir şeyin əmələ gəlmədiyini öyrənmək lazımdır... zəkamız yaxud duyğu üzvlərilə aldığımız hər hansı bir təsəvvürdə - istər forma, istərsə də mühüm xassələr haqqında təsəvvür olsun".

... iybilmə barəsində də eşitmə xüsusunda olduğu kimi düşünmək lazımdır, yəni bu hiss üzvünü qıcıqlandırmaq üçün uyğun tərzdə yaradılmış əşyadan çıxıb uçuşan müəyyən hissəciklər mövcud olmasaydı, o (iybilmə) heç vaxt heç bir qıcıqlanma əmələ gətirəı

bilməzdi: bu hissəciklərdən bir qismi nizamsızlıqda bulunurlar və ona münasibətdə yaddırlar, başqaları nizamdadırlar və ona yaxındırlar.

...yalnız bizim duyğularla müşahidə etdiyimiz, yaxud zəka ilə dərk etdiyimiz bütün şeylər həqiqidir... Xarici və daxili duyğuları cəlb edərək, - çünki bu yolla həqiqiliyin ən etibarlı əsası alınacaq, anlamaq lazımdır ki, ruh bir növ istilik qarışıqlı kütləyə çox oxşayan, həm də bir qism münasibətdə birinciyə (yəni istiliyə), başqalarında ikinciyə (yəni küləyə) oxşayan bütün orqanizmə səpələnmiş incə hissəciklərdən ibarət olan cisimdir. Ruhun daha bir hissəsi var ki, hissəciklərinin incəliklərinə görə bunların özündən də çox fərqlidir və bu səbəbdən qalan orqanizm ilə uyğun surətdə daha artıq duymağa qabildir. Bütün dediklərimizi ruhun qüvvələri, duyğular, ehtiras, təfəkkür prosesləri və onları itirərkən tələf olduğumuz bütün şeylər təsdiq edir. Sonra duyğunun başlıca səbəbinin ruha mənsub olduğuna inanmaq lazımdır; ancaq o qalan orqanizm ilə qorunmasaydı, onu əldə edə bilməzdi... Nə qədər ki, ruh vücudda olur, vücudun başqa bir hissəsi itirilsə belə, o, heç vaxt duyğudan məhrum olmayacaq; əksinə ruhun bir hissəsini mühafizə edən şey məhv edilərsə - istər bütövlükdə, yaxud onun müəyyən bir hissəsi, - ruh mövcudluğunda qalırsa, duyğuya malik olacaq. Amma nə qədər az miqdar olsa belə, ruhun əslini təşkil edən atomlar kənar edildikdə qlan orqanizm mövcud olmaqda davam edirsə də, - istər bütünlükdə, yaxud onun müəyyən bir hissəsi, - duyğuya malik olmayacaq. Sonra bütün orqanizm tərkib hissələrinə parçalanan zaman ruh dağılır və artıq əvvəlki təsirə malik olmur və hərəkət etmir, belə ki, duyğuya da malik olmur.

Sonra formaya, rəngə, həcmə, ağırlığa və cismin dəyişməz xassələri adlanan ya bütün cisimlərə, ya hissi qavrayış vasitəsilə görünən və dərk olunanlara xas olan bütün başqa xassələrə gəldikdə isə, bu xassələrin nə müstəqil əsl (asılı olmayan substansiya) – axı bunu təsəvvür etmək mümkün deyil, - nə cismə xas olan digər qeyri-cismani substansiyalar, nə cismin hissəsi olduğunu zənn etmək lazım deyil; zənn etmək lazımdır ki, bütün cisim bütövlükdə özünün daimi